

**ƏLİ ƏHMƏDOV,**
Yeni Azərbaycan Partiyasının İcra katibi,
Milli Məclisin deputatı

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN İNKİŞAF YOLU: MİLLİ YÜKSƏLİŞİN ŞƏXSİYYƏT AMİLİ

30 ildən çoxdur ki, Heydər Əliyevin adı lider ifadəsi ilə birlikdə çəkilir. 1969-cu ildən bu günə kimi (kiçik fasilə nəzərə alınmasa) Azərbaycanın siyasi həyatı onun xarizmatik liderliyinin təsiri altında olub. Bundan sonra hələ neçə illər də Heydər Əliyev liderliyi həyatımızın başlıca gerçəkliyi olaraq qalacaqdır. Bir neçə aydan sonra ölkədə keçiriləcək növbəti prezident seçkiləri ərəfəsində ayrı – ayrı partiya mənsublarının və qruplaşmaların cəmiyyətdə siyasi gərginlik elementləri yaratmaq cəhdləri də daxil olmaqla siyasi proseslərin ümumən sakit, rəvan və proqnozlaşdırılan axarı onu göstərir ki, xalq 2003-cü ilin prezidentlik yarışının qalibi çələngini yenə də Heydər Əliyevə təqdim etməyə hazırlaşır. Bunun əlamətləri artıq indidən özünü açıq şəkildə büruzə verir. Heydər Əliyevin 2003-cü ilə təsadüf edən yubiley təntənələrinin əzəməti və ictimai ovqatda doğurduğu nikbinlik notları onun Azərbaycanın prezidentliyi uğrunda demokratik və ədalətli yarışda qazanacağı qələbəni sadəcə zamanını gözlə-yən gerçəklik kateqoriyasına aid etməyə hər cür əsas yaradır.

Heydər Əliyevin liderliyinin səciyyəvi xüsusiyyəti təkcə onun uzunmüddətliliyində deyil, bəlkə də daha çox zəngin məzmuna malik olmasındadır. Tam qətiyyətlə və cəsarətlə demək olar ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər onun tarixinin ən intensiv inkişaf mərhələsini təşkil edir. Bu mənada həmin dövrü tariximizin sürətli və hərtərəfli yüksəliş zolağı adlandırmaq bəlkə də daha dəqiq qiymətləndirmə nümunəsi olardı. Məhz haqqında söhbət gedən zaman kəsiyində Azərbaycan malik olduğu böyük intellektual və insani potensialı, təbii resursları – bir sözlə, milli gücü cəmləyib ölkənin qətiyyətli tərəqqisinin qüdrətli amilinə çevirmək imkanı qazanmışdır.

Böyük tarixi şəxsiyyətlərin rolunu yüksək dəqiqliklə qiymətləndirmək həmişə çətin olmuşdur. Bunun bir çox səbəbləri mövcuddur. Lakin ən çətin cəhət onunla əlaqədardır ki, irimiqyaslı tarixi şəxsiyyətlərin yerinə yetirdiyi funksiya əksər hallarda xronoloji çərçivələrə sığmır, inkişafın sonrakı gedişinə də əhəmiyyətli dərəcədə təsir göstərir. Belə tarixi şəxsiyyətlər bir qayda olaraq lideri olduğu xalqın ictimai həyatının gələcək inkişaf konsepsiyasını və strategiyasını müəyyən etməklə onun sonrakı taleyinin də təyin edilməsi məsuliyyətini müəyyən mənada öz üzərinə götürür.

Sözü gedən metodika prizmasından yanaşmaqla, Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyətinin miqyasını və əhəmiyyətini təhlil obyektinə çevirməyə cəhd edə bilərik. Təhlil predmeti qismində isə, təbii ki, onun xalq qarşısında 30 ildən yuxarı müddətdə göstərdiyi xidmət, ölkənin gələcək inkişafı perspektivlərinin və yolunun müəyyənləşdirilməsi çıxış etməlidir. Lakin Heydər Əliyevin xalqa xidməti anlayışı kifayət qədər tutumlu olduğundan, təhlilin anlaşıqlı mahiyyət kəsb etməsi onu konkretləşdirməyi tələb edir.

Hər şeydən əvvəl qeyd edilməlidir ki, Heydər Əliyevin xalqa xidməti kompleks xarakter daşıyır. Həyatın elə bir sahəsi yoxdur ki, Heydər Əliyevin rəhbərliyi illərində əhəmiyyətli inkişafa məruz qalmasın. Həm də bu inkişaf sadəcə olaraq prosesin adi axarının təzahürü formasında deyil, bir qayda olaraq əhəmiyyətli keyfiyyət dəyişiklikləri ilə müşayiət olunan sıçrayış xarakterli yeniləşmə formasında özünü büruzə vermişdir. 1970-80-ci illərdə Azərbaycan cəmiyyətinin həyatında baş verən sürətli tərəqqi sayəsində ölkənin mahiyyət etibarilə yeni keyfiyyət halına keçməsi inkaredilməz reallıqdır. Azərbaycanın ikinci dəfə yeni keyfiyyət halına daxil olması da, artıq başqa siyasi reallıqlar çərçivəsində, 1993-cü ildə Heydər Əliyevin ölkə rəhbərliyinə gəlməsi ilə birbaşa əlaqədardır.

Deməli, Heydər Əliyevin xidməti və tarixi missiyası sistemində özünü büruzə verən əsas cəhətlərdən biri onun Azərbaycanın inkişafına nail olmasıdır. Həm də, artıq qeyd edildiyi kimi, bu sadəcə ənənəvi həyat irəliləyişinin xronoloji sistemindən irəli gələn adi inkişaf yox, keyfiyyət dəyişikliyinə gətirib çıxarmağa qadir olan sürətli yüksəlişdir.

Heydər Əliyevin tarixi xidmətləri təhlil edilərkən belə bir cəhət də istər-istəməz diqqəti özünə çəkir ki, Azərbaycan xalqının bu dahi lideri milli-birləşdirici faktor rolunda çıxış etmişdir. Onun bütün fəaliyyəti bir yandan xalqın milli-mənəvi potensialının və resurslarının səfərbər edilməsinə istinad edirsə, digər yandan da milli özünüdərk mexanizminin tam mənasında işə salınmasını nəzərdə tutur. Bunun sayəsində Heydər Əliyev daim milli-birləşdirici faktor qismində çıxış etmiş və beləliklə də, milli inkişaf prosesini bu qüdrətli fundament üzərində kökləməyə müvəffəq olmuşdur. 70-80-ci illər rəhbərliyi dövründə Heydər Əliyevin milli birlik faktoru anlamı Azərbaycanın sürətli inkişafına nail olunmasını və bunun sayəsində milli qürur hissinin möhkəmləndirilməsini ehtiva edirdi. Azərbaycanın az müddətdə keçmiş SSRİ-nin geridə qalmış əyalətindən qabaqcıl respublikalarından birinə çevirməsi hər bir azərbaycanlıda haqlı olaraq milli qürur hissi yaradır və beləliklə də, azərbaycanlılıq, bu millətə mənsub olduğunu dərk etmək fərddə xüsusi iftixar hissi formalaşdırırdı.

Sözügedən faktor Heydər Əliyev hakimiyyətə 1993-cü il ilə qayıtdıqdan sonra özünü daha aydın göstərərək, həqiqi mənada ölkənin milli təhlükəsizliyinin ən vacib şərtlərindən birinə çevrildi. 90-cı illərin əvvəllərinə xas olan separatçılıq, etnik parçalanma meyllərinin ölkənin varlığı üçün yaratdığı real və ciddi təhlükə yalnız Heydər Əliyevin Azərbaycanın rəhbəri olduqdan sonra elan etdiyi və qətiyyətlə həyata keçirdiyi azərbaycançılıq ideologiyası sayəsində dəf olundu. Azərbaycançılıq milli birliyi və vətəndaş həmrəyliyini qoruyub saxlayan, daha da möhkəmləndirən səmərəli faktora çevrildi. Heydər Əliyev isə bu faktoru uğurla hərəkətə gətirərək özünü ölkənin mülli birliyinin qüdrətli qarantı kimi təsdiq etdi.



Heydər Əliyevin tarixi xidmətləri sırasında müstəqil Azərbaycan dövlətinin qurulması şəksiz birincilik haqqına malikdir. Hər bir azərbaycanlının və Azərbaycanın müasir tarixinə az-çox bələd olan hər kəsin etiraf etdiyi və yüksək qiymətləndirdiyi bu tarixi missiyanın həyata keçirilməsinin yalnız ölkəmizin müstəqillik dövrünə təsadüf etdiyini düşünmək həqiqəti yarımçıq dəyərləndirmək nümunəsi olardı. Şübhə yoxdur ki, birbaşa, geniş, tammiqyaslı və dövlətçilik anlayışını tamamlayan bütün atributları nəzərdə tutan milli dövlət quruculuğu Azərbaycanın öz müstəqilliyini bəyan etdikdən sonrakı tarixi mərhələnin adına yazılmağa layiq fövqaladə hadisədir. Ancaq siyasi prosesləri və reallıqlarımızın bütün incəliklərini dəyərləndirərkən ədalətsiz görünməmək istəsək, etiraf etməliyik ki, müstəqil Azərbaycan dövləti siyasi, iqtisadi, mənəvi və s. cəhətlərdən heç də tam boş müstəvi üzərindən qurulmayıb. SSRİ-nin süqutu ilə dövlət müstəqilliyini bəyan edərkən Azərbaycan haqlı olaraq özünü 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin varisi hesab etdiyi kimi, milli dövlət quruculuğu prosesində də eyni haqla müstəqillikdən əvvəlki dövrün xalqımıza miras qoyduğu iqtisadi, mədəni, mənəvi potensialdan, habelə dövlət idarəçiliyi ənənəsi və təsisatları sistemindən faydalanmış və faydalanmaqda davam edir.

Sadalanan həmin gerçəkliklərin milli dövlət quruculuğu prosesinin istinad etdiyi zəngin və dəyərli milli sərvətlər olduğunu hesab etmək üçün bütün əsaslar mövcuddur. Həmin sərvətlərin formalaşması və zənginləşməsi işində Heydər Əliyev hələ Azərbaycana 70-80-cı illərdə rəhbərlik etdiyi dövrdə böyük əmək sərf etmiş, misilsiz xidmətlər göstərmişdir. Müstəqil Azərbaycan dövlətinin quruculuğu prosesində ölkədə əvvəllər yaradılmış iqtisadi, elmi-texniki potensialın müstəsna əhəmiyyəti Heydər Əliyev tərəfindən dəfələrlə yüksək qiymətləndirilmişdir. O, haqlı olaraq bildirir ki, Azərbaycanda müstəqilliyə qədərki dövrdə əldə edilən iqtisadi potensial, infrastruktur, elm və təhsilin inkişafı, müxtəlif sahələrdə çalışan yüksək ixtisaslı kadrlar olmasaydı, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı.

Beləliklə, xüsusi təfərrüata varmadan Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz tarixi xidmətlər haqqında təhlil apararkən haqlı olaraq onun müstəqil, azad, suveren Azərbaycan dövlətini qurması faktı birmənalı şəkildə vurğulanır. Bu mənada azərbaycanlıların onu müstəqil Azərbaycan dövlətinin memarı sayması üçün bütün obyektiv əsasların mövcudluğu inkar edilməzdir. Eyni zamanda müstəqil Azərbaycan dövlətinin ölkə prezidenti Heydər Əliyevin şah əsəri olması barədə ictimai düşüncədə özünə artıq möhkəm yer tutmuş tezisin də öz növbəsində tutarlı dəlillərə söykəndiyini sübuta yetirməyə ehtiyac yoxdur. Bir-biri ilə bağlı olan, bəlkə də eyni hadisənin müxtəlif təzahürü kimi

dəyərləndirilə bilən bu iki tezis – Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır və müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir tezisləri ictimai düşüncənin sanksiyalaşdırdığı gerçəklik olaraq qavranılır. Xalq qəti əminliklə onun fərqindədir ki, həyatımızı əhatə edən gerçəkliyin qərar tapması Heydər Əliyevin tarixi xidmətlərinin birbaşa nəticəsidir və bu xidmətlər kənarında həyatımızın gerçəkliyi tamam başqa qiyafədə meydana çıxmaq zorunda qalardı. Deyilənlərin tarixi analogiya vasitəsilə daha anlaşılan məzmuna gətirilməsinə cəhd etsək, müasir Türkiyənin tarixində Atatürkün oynadığı tarixi missiyanı xatırlamaq yetərincədir. Çoxəsrlik dövlətçilik ənənəsinə malik olan Türkiyə tarixinə Atatürkün Türkiyə Cümhuriyyətinin qurucusu kimi daxil olması ilə türk xalqının ictimai qavramı bu həqiqəti milli düşüncə tərzinin tərkib hissəsinə çevirərək, ideoloji məfkurə elementi səviyyəsinə yüksəltmişdir. Başqa sözlə ifadə olunsa, Atatürkçülük çağdaş türk dövlətçilik tarixində başa çatmış hər hansı xronoloji mərhələni deyil, davam etməkdə olan inkişaf və kamilləşmə prosesini əks etdirir. Dövlət quruculuğu missiyasının xüsusiyyəti məhz bundan ibarətdir ki, bu missiya davamlı proses paramertləri kəsb etdiyi halda, tarixi fakt rolunu iddia etmək hüququ mənimsəyir. Deməli, siyasi memarın əməyi və xidməti öz ifadəsini təkcə inşa edilən siyasi abidədə deyil, bəlkə də daha çox onun kamilləşməsi və bununla da uzunmüddətli mövcudluğunun təmin etməsi üçün gərəkli olan dəyərlər sisteminin formula edilib milli ideologiyaya çevrilməsində tapır. Bir daha ruhən bizə yaxın olan tarixi analogiyaya müraciət etsək, etiraf olunmalıdır ki, Atatürkün müasir Türkiyə Cümhuriyyətinin yaradıcısı kimi qavranılması onun nə dərəcədə ölkəni fəlakətdən xilas edib, dövlətçiliyi qoruyub saxlaması ilə əlaqədardırsa, o dərəcədə də Atatürkçülüyün türk milli ideologiyasına çevrilməsindədir. Çünki məhz bu ideologiya, Atatürk yolu Türkiyə dövlətinin mövcudluğunun və inkişafının fundamental prinsipi və dəyərlər sistemi rolunu oynamaqla onun varisliyini təmin edir.

Söylənilən fikirlər və istinad olunan tarixi analogiya Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin banisi olması haqqında tezisin mahiyyətini və məzmununu daha dolğun qavramaq üçün gərəkli elmi metod rolunu oynaya bilər. Düşünürük ki, belə bir metodun tətbiq edilməsinə ehtiyac heç də yox deyildir. Lakin bu əsla ictimai düşüncənin qəbul etdiyi həqiqəti sübuta yetirmək zərurətindən doğmur. Əsas məsələ Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin quruculuğu sahəsində müəyyənləşdirdiyi konsepsiya, prinsip və dəyərlər sisteminin milli ideologiya sistemi kimi nəzərdən keçirilərək, ictimai düşüncənin mühakiməsinə təqdim edilməsindədir. Aparılan təhlil və nəzərdən keçirilən tarixi analogiyalar bizi qəti şəkildə bu inama gətirmişdir ki, Heydər Əliyevin öz üzərinə götürdüyü tarixi missiya hər hansı xronoloji çərçivəyə sığmır və onun mahiyyət müəyyənliyi Azərbaycan xalqının ideologiya sisteminin yaradılmasındadır. Həmin ideoloji sistemin onurğa sütununu Heydər Əliyevə məxsus olan dövlətçilik baxışları və onlara əsaslanan dövlət quruculuğu siyasəti təşkil edir.



Heydər Əliyevin dövlətçilik baxışları sistemi kompleks xarakter daşımaqla mahiyyətcə milli inkişafın məfkurə əsası rolunda çıxış edir. Bu tezisə şamil edilən məna tutumunun qayəsi haqqında bəhs edilən baxışlar sisteminin əslində Azərbaycanın inkişaf yolunu müəyyənləşdirməsindədir. Elmi və siyasi ədəbiyyatda artıq dövriyyəyə daxil edilmiş «Heydər Əliyev yolu» anlayışı məhz həmin məna çalarına sahibdir.

Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə Heydər Əliyevin fəaliyyətinə ciddi dəyərlər sisteminə əsaslanmaq kimi keyfiyyət xas olmuşdur. Bu onun göstəricisidir ki, Azərbaycan tarixinin həmin dövrü ölkə inkişafının konseptual bazaya söykənərək həyata keçirilməsi ilə müşayiət olunmuşdur. Mövcud rəhbərlik stili və təcrübəsinin əhatəli təhlili və dəyərləndirilməsi indinin özündə də Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və ölkənin tərəqqisinin konseptual əsasını təşkil edən baxışlar sisteminin və dəyərlən məcmusunun fəaliyyətdə olması qənaətinə gəlməyə tam əsas verir. Sözü gedən baxışlar və dəyərlər sisteminin məzmunu və təyinatı isə fikrimizcə, Azərbaycanın inkişaf yolunu müəyyən etmək, onun həyata keçirilməsi amillərini, şərtlərini və resurslarını dəqiqləşdirərək sistemə salmaqdır.

Azərbaycanın inkişaf yolunun Heydər Əliyev konsepsiyası ideyanın praktik fəaliyyətə transformasiya edərək, insanların davranışını stimullaşdırmaq qüdrətinə malik olan dəyərlərin tam dəstini özündə ifadə edir. Həmin dəyərlər sistemi ümummilli ideyanın təmin edilməsi ilə yanaşı, hər bir fərdin şəxsi idealının həyata keçiriləmsini ehtiva edən prinsip və vəzifələri üzvi şəkildə əks etdirir. Məhz bu amil onun ictimai cazibədarlığını və səmərəli fəaliyyət koofisentini şərtləndirən səbəblərdən biri keyfiyyətində çıxış edir. Mühüm həqiqətdir ki, ictimai ideya fərdi qavranma və qəbuledilmə mexanizmi vasitəsi ilə ictimai və ya ümummilli davranış faktoruna çevrilir. Tarixi təcrübə fərdi maraqlar yükünü daşımaq imkanından məhrum edilmiş ideya sisteminin uğursuzluğa məhkum edildiyini dəfələrlə sübuta yetirmişdir. Bu baxımdan, artıq söylənilən tezisi başqa şəkildə ifadə edərək təsdiqləmək mümkündür ki, Azərbaycanın inkişaf yolunun əsasını təşkil edən Heydər Əliyev konseptual sisteminin gücü ümummilli ideyanın kifayət qədər fərdi maraq ünsürləri ilə yüklənməsindədir. Məhz bunun sayəsində hər bir fərd sözügedən ideya və baxışlar sistemində özünün ictimai dəyərlər dərəcəsinə yüksəldilmiş istək və arzularının ifadəsini tapır.

Heydər Əliyevin Azərbaycanın inkişafı barədə baxışları sisteminin təhlili onun üç fundamental başlanğıca istinad etdiyini göstərir. Bunlar **güclü dövlət, səmərəli iqtisadiyyat və azad insandır**. Hər üç başlanğıcın qarşılıqlı ahəngdar fəaliyyəti ölkənin yüksək inkişafına, hərtərəfli tərəqqisinə xidmət edən əzəmətli vasitəyə çevrilmək gücündədir.

Güclü dövlət ölkənin və onun əhalisinin təhlükəsiz, əmin-amanlıq şəraitində və rifah halında yaşamasını təmin edən sosial-siyasi və milli-əxlaqi mühitin, birgəyaşayış norma və qaydalarının mövcudluğunu özündə ehtiva edir. Heydər

Əliyevin qurduğu və daha da kamilləşməsi üçün yorulmadan fəaliyyət göstərdiyi müstəqil, demokratik, hüquqi, dünyəvi, sosial Azərbaycan dövləti məhz bu parametrlərə malik olub ölkənin gələcək və sürətli inkişafının mühüm başlanğıcını təşkil edir. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra təxirəsalınmaz tədbirlər kimi ölkədə sabitliyi, əmin-amanlığı, dövlət intizamını təmin etmək, qanunçuluğu və hüququn aliliyini gözləmək sahəsində atdığı addımların məntiqi bununla izah oluna bilər.

Səmərəli iqtisadiyyat güclü dövlətin, bir yandan fundamental əsası, digər yandan isə, fəaliyyətinin nəticəsi və göstəricisidir. Güclü dövlət yaratmadan səmərəli iqtisadiyyat qurmaq mümkün olmadığı kimi, sonuncusuz da güclü dövlət anlayışı ağlabatan deyil. Elə buna görə Heydər Əliyevin haqqında fikir yürütdüyümüz konsepsiyasının vacib bir vəsiləsini səmərəli iqtisadiyyatın yaradılması ideyası təşkil edir. İdeyanın əsasında ölkədə bazar münasibətlərinə söykənən iqtisadi sistemin qurulması, vətəndaşların iqtisadi sərbəstliyinə və təşəbbüskarlığına tam meydan verilməsi, Azərbaycanın zəngin təbii sərvətlərindən iqtisadiyyatın dirçəldilməsi məqsədlərinə istifadə edilməsi, sərbəst investisiyaların cəlb edilməsi faktoruna üstünlük verilməsi, dünya iqtisadi strukturlarına və proseslərinə sürətlə inteqrasiya edilməsi kimi mütərəqqi və müasir tezislər durur.

Azərbaycanın inkişaf yolu konsepsiyasında səmərəli iqtisadiyyat ideyasına şamil edilən məqsəd və vəzifələr kifayət qədər geniş miqyasa və ictimai mənaya malikdir. Buraya ölkənin qüdrətli iqtisadi potensialından tutmuş insanların rifahını yüksəltmək, fərdin sərbəstliyinə meydan vermək, Azərbaycanın beynəlxalq nüfuzunu artırmaq kimi vəzifələr daxildir. Heydər Əliyevin «güclü iqtisadiyyatı olan dövlət məğlubedilməzdir» ifadəsi səmərəli iqtisadiyyat probleminə ölkənin dövlət başçısının nə qədər böyük önəm verdiyini bütün çılpaqlığı ilə göstərir. Bütün dövrlər və ölkələr üçün eyni dərəcədə əhəmiyyətli olan bu sözlərin Azərbaycan üçün xüsusi məna daşıdığını sübut etməyə ehtiyac görünmür. Heydər Əliyevin həmin fikrində əslində səmərəli və güclü iqtisadiyyatın bütün digər ənənəvi məsələlərin həlli ilə yanaşı, ölkənin təhlükəsizliyinin təmin edilməsi sahəsində müstəsna rolu da lakonik şəkildə ifadə edilir. Ermənistanla müharibə vəziyyətində olan, torpaqlarının 20 faizi işğal edilmiş Azərbaycan üçün bu sözlərin hansı məna yükünə malik olduğu, düşünürəm ki, xüsusi izaha ehtiyac duymur. Heydər Əliyevin Azərbaycanın inkişafı yolu kimi qavradığımız ideya və baxışları sistemində səmərəli və güclü iqtisadiyyat ölkəmizin müdafiə potensialının artırılması, münaqişənin dinc vasitələrlə nizama salınması strategiyasının uğur qazanmasının mühüm və qüdrətli amili kimi nəzərdən keçirilir. Azərbaycanın dövlət başçısının ölkənin işğal altında olan torpaqlarının dinc vasitələrlə azad edilməsinə inamının əsasında məhz haqqında danışılan iqtisadi üstünlük amilinin dayandığını düşünmək üçün kifayət qədər ciddi əsaslar mövcuddur.

Orası da xüsusi qeyd edilməlidir ki, iqtisadi üstünlük amilinin mövcud münaqişəni nizama salmaq potensialı təkcə nəzəri mülahizələr və məntiqə deyil, həm də tarixi təcrübəyə əsaslanır. Çox da uzaq olmayan keçmişdə münaqişələrin nizama salınmasında və onların ədalətsiz nəticələrinin aradan qaldırılmasında iqtisadi üstünlük amilinin həlledici rol oynadığına dair konkret nümunələr artıq müasir tarixin bizə təqdim etdiyi reallıqlar kateqoriyasına aid olan fakta çevrilib.

Heydər Əliyevin Azərbaycanın inkişaf konsepsiyasının digər fundamental tezisi insan azadlığı sferasına aiddir. Müasir ictimai münasibətlər və fəlsəfi cərəyanlar nöqteyi – nəzərindən yanaşıldıqda insan azadlığı kifayət qədər geniş problemləri və sahələri əhatə edən sintetik kateqoriya qismində qavranılır. Onun Azərbaycanın magistral inkişaf yolu strategiyasında önəmli yer tutması ölkənin demokratik dəyərlərə və insan haqlarına sədaqətindən irəli gəlir. Müstəqillik əldə edildikdən sonra Azərbaycan demokratik inkişaf yolu seçərək bu istiqamətdə inamla irəliləmiş, insan haqlarının qorunmasına etibarlı təminat verən səmərəli təsisatlar mexanizmi yaratmağa nail olmuşdur. Yeni Azərbaycan Partiyasının 10 illik yubileyinə həsr olunmuş təntənəli partiya toplantısında Heydər Əliyev bəyan etmişdir: «İnsan haqlarının qorunması bizim əsas vəzifələrimizdəndir. Biz bunu təmin etmişik, bundan sonra da təmin edəcəyik. Buna heç kəsin şübhəsi olmasın».

Şəxsiyyətin azadlığı ictimai tərəqqinin hərəkətverici amili kimi nəzərdən keçirilir. Azad insan sərbəst iqtisadi münasibətlər sistemində başlıca ünsür qismində təzahür edərək, sistemin həyat qabiliyyətini və səmərəli fəaliyyətini təmin edir. Fərdin azadlığının şərtləndirdiyi təşəbbüskarlıq və fəallıq ictimai fəallığa transformasiya edərək, cəmiyyətdə inkişafa güclü təkan verən ümumi işgüzarlıq və yaradıcı təşəbbüskarlıq mühiti və əhval-ruhiyyəsi formalaşdırır.

Tədqiq edilən mövzu ətrafında fikir və mülahizələrin konkret şərhlərini tamamlayaraq, qeyd etməyi zəruri hesab edirik ki, Azərbaycanın inkişaf yolunun etibarlı təminatı onun nəzəri, konseptual əsasını təşkil edən ideyaların həyatın tələbatından qaynaqlanaraq insanların istək və arzularına cavab verməsi ilə yanaşı, həm də bəlkə də daha çox şəxsiyyət amili ilə əlaqədardır. Bu tezis ölkə tarixinin son dövrlərinin ortaya qoyduğu ən mühüm həqiqətlərdən biri kimi ictimai düşüncəyə artıq həkk olunubdur. Son 10 ildə Azərbaycanın dəf etdiyi çətin, lakin şərəfli yol yalnız Heydər Əliyevə görə tarixi həqiqətə çevrilə bilibdir. Tarixi şəxsiyyətin rolu təkcə ondan ibarət deyil ki, o, xalqın, millətin istək və arzusunu daha tam və dolğun ifadə edə bilir. Doğrudur, şəxsiyyətin tarixi miqyaslarını təyin edən parametrlər içərisində bu keyfiyyət az əhəmiyyət daşımır. Lakin lider missiyasını öz üzərinə götürmüş şəxsiyyətin fəaliyyət və xidmətlərinin miqyasları daha çox qarşıya qoyulmuş məqsədlərə nail olmaq, xalqın istək və arzularını həyata keçirmək göstəriciləri ilə ölçülür. Bu mənada Heydər Əliyevin liderlik missiyası sözügedən parametrlərin hər ikisinə uyğun gəlir və beləliklə də, onun şəxsiy-yətinin həm bütövlüyünü, həm də nəhəngliyini nümayiş etdirir.

Belə bir gerçəklik də diqqəti çəkir ki, Heydər Əliyevin Azərbaycanın inkişaf yolunun həm konsepsiyanın müəyyən edilməsində, həm də onun uğurla həyata

keçirilməsində tarixi xidmətləri təkcə əldə edilən nailiyyətlər və cari gerçəkliklərlə tamamlanmır. Adı çəkilən cəhətlərin vacibliyini etiraf edərək vurğulamağı lazım bilirik ki, bu yolun mahiyyəti daha çox gələcək perspektivlər və inkişaf meylləri ilə əlaqədardır. Azərbaycanın bu günü və gələcəyi ilə bağlı arzularını ifadə edərək, Heydər Əliyev Yeni Azərbaycan Partiyasının II qurultayında demişdir: «Müstəqil Azərbaycanan bu gün də, gələcəkdə də yaşaması bizim üzərimizə, mənim üzərimə düşən əsas vəzifədir». İnanırıq ki, Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolu uzun illər boyu Azərbaycanın tərəqqisi və yüksəlişinin baş xətti olaraq ölkəni yüksəlişə və tərəqqiyə aparacaqdır. Heydər Əliyev şəxsiyyəti isə bu yolun uğur və təminat faktoru missiyasını bu günə qədər olduğu kimi, bundan sonra da layiqincə yerinə yetirəcəkdir.